# Abdulla Şaiq - 120



XX əsr milli ədəbiyyatımızın və təhsilimizin inkişafında nasir, dramaturq, maarifçi Abdulla Şaiq Talıbzadənin müstəsna əməyi vardır. Yubileyi Azərbaycanın mədəniyyət bayramına çevrilmiş ədibin anadan olmasının 120 illiyi münasibətilə Opera və Balet Teatrında gecə keçirilmişdir.

Teatrın foyesində 1881-1959-cu illərdə yaşayıb-yaratmış şairin həyat və yaradıcılığını əks etdirən sərgi açılmışdır. Gecəni Mədəniyyət naziri Polad Bülbüloğlu giriş sözü ilə açaraq "Abdulla Şaiqin milli mədəniyyətimizin inkişafındakı xidmətlərindən, ədibin yaradıcılıq irsinin əhəmiyyətindən danışmışdır.

Milli Elmlər Akademiyasının müxbir üzvü, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, professor Yaşar Qarayev Abdulla Şaiqin yaradıcılığı və çoxşaxəli fəaliyyəti barədə məruzə etmişdir. Natiq qeyd etmişdir ki, A.Şaiq ötən əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindəndir. Onun fəaliyyətinin böyük bir dövrü maarifçiliyin inkişafı ilə bağlı olmuş, o, orta təhsil məktəbləri üçün bir sıra sanballı dərslikləri yaratmışdır. Təsadüfi deyildir ki, Azərbaycanda uşaq ədəbiyyatının, xüsusilə milli uşaq dramaturgiyasının yaranmasında, o cümlədən uşaq teatrının təşəkkülü və inkişafında A.Şaiqin misilsiz xidmətləri olmuşdur.

Abdulla Şaiqin oğlu, akademik Kamal Talıbzadə çıxış edərək atasının yaradıcılığının və xatirəsinin yüksək qiymətləndirilməsinə görə respublika prezidenti cənab Heydər Əliyevə, yubiley gecəsinin bütün iştirakçılarına dərin təşəkkürünü bildirmişdir.

Milli Dram Teatrının aktyorları Laləzar Mustafayeva və Nurəddin Mehdixanlının aparıcılığı ilə keçən bədii hissədə tanınmış sənətkarlar çıxış etmişlər.

Ədibin "Bir saatlıq xəlifə" və "Fitnə" əsərlərindən fraqmentlər göstərilmişdir.